# Razi Nurullayev Binəqədi seçiciləriylə görüşüb





Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat, prezidentliyə namizəd Razi Nurullayev Binəqədidə seçicilərlə görüşüb. Görüşdə Razi Nurullayev "Sosial ədalət, sosial demokratiya" şüarlı platformasına dair geniş məlumat verib, mövcud sosial-iqtisadi problemlərə toxunub, bu problemlərin həlli yollarından danışıb. Sonda prezidentliyə namizəd seçicilərin suallarını cavablandırıb.





# Razi Nurullayev bir qrup İmişli sakiniylə görüşüb



Milli Cəbhə Partiyasının (MCP) sədri, deputat, prezidentliyə namizəd Razi Nurullayev İmişlidə bir qrup seçici ilə ayaqüstü görüşüb. Namizəd görüşün çox həyəcanlı və mənalı keçdiyini bildirib. Razi Nurullayev İmişli seçicilərinin ona güvəndiyini deyib. Rayon sakinlərinə müraciət edən namizəd "Bilirəm ki, İmişli camaatı mənə inanır. Sağ olun, var olun. Sizinlə irəlidə əzəmətli görüş keçirəcəyik ki, səsindən qulaqlar tutulsun", - deyə bildirib.